# Gənclərin formalaşmasında mühüm layihə

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı tur-aksiya iştirakçıları ilə görüşmüşdür

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikanın ümumtəhsil məktəblərininin IX-XI sinif şagirdləri üçün təşkil olunan "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində noyabrın 16-da Quba-Qusar və Xaçmaz rayonlarına yola düşən Qəbələ məktəbliləri ilə görüşmüşdür.***





Tur-aksiyada iştirak edən şagirdlərin, eləcə də bir qrup müəllimlərin və valideynlərin, müvafiq idarə, təşkilat və müəssisə rəhbərlərinin qatıldıqları yığıncaqda Səbuhi Abdullayev maarifləndirici tur-aksiyaların əhəmiyyətindən söz açmış, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədinin gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunması, onlarda vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət hisslərinin aşılanması, habelə dünyagörüşlərinin daha da zənginləşməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. Qeyd etmişdir ki, 4 il ərzində 7 istiqamət üzrə ölkəmizin bütün bölgələrinin əhatə olunduğu tur-aksiyalarda ümumilikdə 13 min 648 məktəbli iştirak etmişdir. Cari ilin noyabr ayının 11-14 və 16-19 tariixlərini əhatə edəcək növbəti 8-ci tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər rayondan 3213 nəfərin iştirakı, bununla da iştirakçıların sayının 17 minə çatdırılması nəzərdə tutulmuşdur.

Yığıncaqdakı çıxışında Səbuhi Abdullayev tədbir iştirakçılarına bildirmişdir ki, ölkə başçısı cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə "Əsrin müqaviləsi" adlı neft müqaviləsinin vaxtının uzadılması, TAP və TANAP layihələrinin uğurla icra olunması, bu günlərdə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu və bu kimi digər beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi nəticəsində ulu öndər Heydər Əliyevin qurub-yaratdığı Azərbaycanın dinamik inkişafı təmin olunmuş, şəhər və rayonlarımızın siması əhəmiyyətli dərəcədə dəyişmişdir.

Çıxışı zamanı rayon icra hakimiyyətinin başçısı vurğulamışdır ki, cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafına, ekologiyanın qorunmasına göstərilən diqqət, hər il ölkə vətəndaşlarının pulsuz müayinəyə cəlb edilməsi, şəhid və əlil ailələrinə, qaçqın və məcburi köçkünlərə, aztəminatlı ailələrə dövlət qayğısının artırılması, vətəndaşların rifahının yaxşılaşdırılması, bütün bunlar insan kapitalına xidmət edir və sosial-iqtisadi inkişafımızın yüksələn xətt üzrə inkişafından xəbər verir.

O, qeyd etmişdir ki, hərbi vətənpərvərlik ruhunda yetişən gənc nəslin 2016-cı ilin aprel döyüşlərində göstərdikləri qəhrəmanlıqlar, böyük qayıdışın ilk müjdəsi olan Cocuq Mərcanlı kəndinin yenidən qurulması bizi daha da ruhlandırır, yeni qələbələrə səsləyir. Ölkəmizdə sabitliyin qorunub saxlanılması, Azərbaycanın dünyəvi tolerant, multikultural dövlətə çevrilməsi beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

Səbuhi Abdullayev demişdir ki, ölkədə həyata keçirilən mütərəqqi layihələrin fonunda təşkil olunmuş "Ölkəmizi tanıyaq" tur-aksiyasının əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin memarı olduğu Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda gedən dinamik sosial-iqtisadi inkişaf nəticəsində gündən-günə abadlaşan şəhər və rayonlarımızın bu günü barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Rayon icra hakimiyyətinin başçısı bildirmişdir ki, ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar.

Aksiyanın çərçivəsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunacaq, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

Çıxışının sonunda Səbuhi Abdullayev tur-aksiya iştirakçılarına uğurlar arzulamışdır.

Yığıncaqda çıxış edən valideynlər, müəllimlər və məktəblilər tur-aksiyanın təşkilatçılarına və ölkə başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

## Qəbələ məktəbliləri ölkəmizin şimal bölgələrinə təşkil olunan tur-aksiyada iştirak etmişlər

***Ulu öndər Heydər Əliyevin hərtərəfli inkişaf etmiş, tariximizə, mədəniyyətimizə, adət və ənənələrimizə bələd olan və ona hörmət edən gənclər yetişdirmək sahəsindəki ideyaları ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkə Prezidentinin təşəbbüsü ilə «Ölkəmizi tanıyaq» devizi ilə məktəbli gənclər üçün təşkil olunan tur-aksiyalar buna əyani sübutdur. Bu tur-aksiyalar gənclərdə vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, onlar tərəfindən ölkəmizin tarixinin, mədəniyyətinin, adət və ənənələrinin, müstəqillik illərində əldə olunmuş misilsiz nailiyyətlərin daha dərindən öyrənilməsində mühüm rol oynayır.***

Noyabrın 16-dan 19-dək Qəbələ məktəblilərinin təhsildə, təhsil müəssisələrinin ictimai həyatında fərqlənən 40 nəfərlik qrupu maarifləndirici tur-aksiya çərçivəsində ölkəmizin şimal bölgəsində—Quba, Qusar, Xaçmaz rayonlarında ekskursiyada olmuşlar.






Yola salma mərasimi Qəbələ şəhərindəki Heydər Əliyev parkında keçirilmişdir. Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavinləri Ətayə Osmanova, Arif Allahverdiyev, RİH-in digər məsul işçiləri, rayon təhsil şöbəsinin müdir əvəzi Yaşar Nəzirov, məktəb rəhbərləri, valideynlər, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova yolasalma mərasimində bildirmişdir ki, bu tur-aksiyalar ölkə Prezidenti cənab İlham Əliyevin ölkəmizin gələcəyi olan gənclərin hərtərəfli yetişməsinə göstərdiyi qayğının təzahürüdür. Gənclərimiz bu aksiya vasitəsilə ölkəmizin şimalında yerləşən Quba, Qusar, Xaçmaz rayonlarının təbiəti, tarixi, iqtisadi və sosial inkişaf səviyyəsi ilə əyani şəkildə tanış olacaq, yeni dostlar qazanacaqlar. Atalar «çox gəzən çox bilər» deyiblər. Sizin də dünyagörüşünüz, vətənimiz haqqında bilikləriniz bu tur-aksiya nəticəsində daha da zənginləşəcək.

Rayon təhsil şöbəsinin müdir əvəzi Yaşar Nəzirov çıxışında tur-aksiyanın gənclərin həyatında unudulmaz izlər buraxacağını bildirərək qeyd etmişdir ki, şagirdlər ölkəmizin şimal bölgələri haqqında kitablardan, mətbuatdan aldıqları bilikləri gözləri ilə görməklə əyani şəkildə zənginləşdirəcəklər.

Vəndam qəsəbə sakini, valideyn Qabil Məmmədov övladlarının hərtərəfli vətəndaş kimi yetişməsinə göstərdiyi qayğıya görə bütün valideynlər adından ölkə Prezidenti İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Savalan kənd ümumi orta məktəbinin şagirdi Leyla Şükürova qeyd etmişdir ki, ölkəmizin hər bir bölgəsini tanımaq onun çoxdankı arzusudur. Respublikamızın bir sıra bölgələrində olsa da, şimal bölgəsində olmamışdır. Onlara bu şəraiti yaratdığına görə ölkə Prezidenti İlham Əliyevə minnətdar olduqlarını qeyd etmişdir.

Sonra tur-aksiya iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Xatirə şəkli çəkdirdikdən sonra şagirdlər rayon icra hakimiyyətinin məsul işçisi Zahir Kərimovun və təhsil şöbəsi işçilərinin müşayiəti ilə avtobusla şimal bölgəsinə yola düşmüşlər.

**Qüdrət CƏMALƏDDİNOĞLU,**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**

### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN DEKABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Bunud kəndi | 05.12.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Yengicə kəndi | 12.12.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mirzəbəyli kəndi | 19.12.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Tövlə kəndi | 26.12.2017 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.